# “Beynəlxalq İpək yolu və Naxçıvan”





**“Naxçıvan” Universitetində keçirilən “Beynəlxalq İpək yolu və Naxçıvan” mövzusunda konfransda AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, İğdır, Atatürk, Milli Savunma, Ərzincan Binali Yıldırım, Biləcik Şeyh Edebali universitetlərinin akademik heyət üzvləri və alimlər iştirak ediblər.**

Konfrans iştirakçıları əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. Sonra onlar görkəmli dövlət xadiminin adını daşıyan muzeyə gələrək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Plenar iclası “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva açıq elan etdikdən sonra deyib ki, Böyük İpək yolu əsrlər boyu Şərq ilə Qərb ölkələrinin iqtisadi, ticarət və mədəni əlaqələrin inkişafında misilsiz rol oynayıb. Rektor beynəlxalq tarixi yolun bərpası təşəbbüsünün ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdıraraq bildirib ki, strateji cəhətdən əhəmiyyətli olan bu layihənin həyata keçirilməsində ən fəal tərəf Azərbaycan olub. Ulu öndərin “Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında” imzaladığı 1998-ci il 7 iyun tarixli sərəncamı Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının gücləndirilməsində müstəsna rol oynayıb.

Məruzə ətrafında çıxışlarda Naxçıvanın Böyük İpək yolu üzərində yerləşən mühüm geosiyasi rolundan, Qars-İğdır-Naxçıvan dəmiryolunun önəmindən, eləcə də Prezident İlham Əliyevin qətiyyətli səyləri ilə açılması planlaşdırılan Zəngəzur dəhlizinin əhəmiyyətindən bəhs olunub.

İkigünlük konfrans bölmə iclasları ilə davam edib.

**Səbuhi HƏSƏNOV**

Xalq qəzeti .- 2022.- 24 noyabr.- S.9.